

Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu bağlantısı layihəsinin icrasında marşrut boyunca torpaq sahələrinin alınması ilə bağlı problem artıq çoxdan həll olunub və bu layihə üçün bu cür maneələr yoxdur.

APA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Bakıda səfərdə olan Gürcüstanın iqtisadi və dayanaqlı inkişaf naziri Georgi Kvirikaşvili bildirib: «Layihə vaxtında istismara veriləcək. Test qatarı 2014-cü ilin sonunda dəmir yoluna buraxılacaq və 2015-ci ildə layihə təhvil veriləcək».

Nazirin sözlərinə görə, bu gün Bakıda keçirilən ikitərəfli Əlaqələndirmə Şurasının iclasında görülən işlər müzakirə olunub və mövcud problemlər həll olunub: «Bu layihə Gürcüstan, Azərbaycan və Türkiyə üçün strateji əhəmiyyət daşıyır. Düşünürəm ki, layihə əlavə yükdaşımaları cəlb edəcək və ölkələrimiz arasında qonşuluq, dostluq və kommersiya əlaqələrini gücləndirəcək».

G.Kvirikaşvili əlavə edib ki, artıq bu gün Mərkəzi Asiya ölkələri və Çin bu layihəyə böyük maraq göstərir: «Tam əminəm ki, BTQ layihəsi perspektivli olacaq. Bu dəmir yolunun tikintisi ilə bağlı verilən qərar müdrik idi və Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlıq əlaqələrini yeni səviyyəyə qaldıracaq. Gürcüstan hər şey edəcək ki, işlərini vaxtında başa çatdırsın».